**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BÖYÜK BRİTANİYANIN AZƏRBAYCAN SİYASƏTİNDƏ NEFT AMİLİ (1991-2013-cü illər)

İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Günel Misir qızı Musayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | AMEA-nın müxbir üzvü,<br>tarix elmləri doktoru, professor<br>**Musa Cəfər oğlu Qasımlı** |
| Rəsmi opponentlər: | AMEA-nın həqiqi üzvü,<br>tarix elmləri doktoru, professor<br>**İsmayıl Muxtar oğlu Hacıyev** |
| | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Əfşan Heydər qızı Şəfiyeva** |
| | tarix üzrə fəlsəfə doktoru<br>**Ceyhun Mübariz oğlu Ələkbərov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | tarix elmləri doktoru, professor<br>**Kərim Kərəm oğlu Şükürov** |
| Dissertasiya şurasının elmi katibi: | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**İlqar Vahid oğlu Niftəliyev** |
| Elmi seminarın sədri: | tarix elmləri doktoru<br>**Lalə Cavid qızı Hüseynova** |

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Problemin tədqiqinin aktuallığı bir neçə amillə şərtlənir. Məlum olduğu kimi, Azərbaycan və İngiltərə arasında münasibətlərin dərin tarixi kökləri vardır. Azərbaycanın zəngin təbii ehtiyatları, əlverişli geosiyasi və geoiqtisadi mövqeyi bütün dövrlərdə xarici dövlətlərin, o cümlədən Böyük Britaniyanın diqqətini cəlb etmişdir. Şərqdə ənənəvi xarici siyasət kursuna sadiq qalan İngiltərə onilliklər boyu zəngin neft ehtiyatlarına və əlverişli mövqeyə malik ölkə olan Azərbaycana həmişə maraq göstərmişdir. XIX əsrin sonları – XX əsrin əvvəllərindən etibarən ingilis kapitalı Bakı neftinin istismarında fəal iştirak etməyə başlamışdır.

Birinci Dünya müharibəsi illərində Böyük Britaniya özünün xarici siyasətində Azərbaycana xüsusi diqqət yetirirdi. Bu da ilk növbədə neft amili ilə bağlı idi. Qısa müddət ərzində Bakı iki dəfə Britaniya qoşunları tərəfindən işğala məruz qaldı. Birinci Dünya müharibəsinin sonlarında yaranmış şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Osmanlı imperiyasının 1918-ci il oktyabrın 30-da Mudros barışığını imzalamasından sonra Böyük Britaniya qoşunlarını Azərbaycana yeritmək üçün ikinci fürsət əldə etdi. 1918-ci ilin noyabrında Antanta dövlətləri adından Britaniya qoşunları Bakıya daxil oldu. Böyük Britaniya Azərbaycan hökuməti ilə əlaqələr qurdu. Lakin 1919-cu ilin ortalarında yaranmış beynəlxalq şəraitə uyğun olaraq Böyük Britaniya Qafqaz işlərində fəal iştirak etməkdən imtina etdi və qoşunlarını Azərbaycandan çıxardı.

1920-ci ilin yanvarında Böyük Britaniya hökumətinin dəstəyi ilə Parisdə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyi tanındı. Burada geosiyasi amillərlə yanaşı, Azərbaycan nefti də mühüm rol oynadı.

Azərbaycan 1920-ci ilin aprelində bolşevik Rusiyası tərəfindən işğal edildi və Cümhuriyyətin mövcudluğuna son qoyuldu. Azərbaycan nefti sovet hökuməti tərəfindən milliləşdirildi. Xarici, o cümlədən ingilis şirkətləri Azərbaycanı tərk etmək məcburiyyətində qaldılar. Buna baxmayaraq, ingilis şirkətləri həm sovet hakimiyyətinin ilk illərində, həm də 1921-1922-ci illərdə keçirilən

London, Genuya və Haaqa konfranslarının gedişində Azərbaycan neftinə xüsusi maraq göstərərək konsessiyalar almağa çalışdılar. Lakin bu konfranslar çərçivəsində razılığa gəlmək mümkün olmadı və onlara konsessiya verilmədi. Sovet, o cümlədən Azərbaycan neftinin satın alınması boykot edildi.

İkinci Dünya müharibəsinin başlanğıcında İngiltərə və Fransa SSRİ-nin Almaniya ilə birlikdə müharibəyə qoşulacağından ehtiyat edərək və Azərbaycan neftindən çox asılı olduğunu nəzərə alaraq Bakının neft mədənlərini bombalamağı planlaşdırırdılar. Lakin o zaman alman ordusunun Qərb cəbhəsindəki şiddətli hücumu müttəfiqləri planlarını təxirə salmağa məcbur etdi. Almaniya SSRİ-yə qarşı müharibə elan etdikdə isə vəziyyət dəyişdi.

XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində soyuq müharibənin sona çatması və SSRİ-də böhranın başlaması ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının da Azərbaycan neftinə olan marağı yenidən yarandı. Sovet İttifaqının dağılmasından sonra isə bu sahədə danışıqlar daha intensiv xarakter daşımağa başladı.

Məlumdur ki, Azərbaycan xalqının milli sərvəti olan neft Azərbaycan Respublikasının xarici siyasətində vasitələrdən biridir. O, digər dövlətlərlə əlaqələrin qurulmasına təsir edir. Neft Azərbaycanın regionda əhəmiyyətinin qoruyub saxlanılmasına, bir çox daxili və beynəlxalq məsələlərin həllinə kömək göstərir.

BMT Təhlükəsizlik Şurasının daimi üzvü, eləcə də dünyanın aparıcı, nüvə dövlətlərindən biri, beynəlxalq problemlərin həllində xüsusi nüfuza sahib olan Böyük Britaniya Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının ilk günlərindən ikitərəfli münasibətlər qurmaq üçün müəyyən addımlar atdı. İngilis şirkətləri neft yataqlarının işlənməsinə dair müqavilələr imzalamaq üçün ilk cəhdləri etdilər. Bütün bu amillər iki ölkə arasında əlaqələrin qurulmasını və inkişafını müəyyənləşdirdi, onları möhkəmləndirmək üçün konkret tədbirlərin həyata keçirilməsinə zərurət yaratdı.

Qeyd etmək lazımdır ki, Azərbaycan hökumətinin əlaqələr qurmaq üçün ilk cəhdləri bir sıra səbəblərdən yarımçıq qaldı. Yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra iki dövlət arasındakı münasibətlərdə, eləcə də neft sahəsində

əməkdaşlıqda keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyuldu. Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında əlaqələrin qurulmasının əhəmiyyətini qiymətləndirərkən Prezident Heydər Əliyev deyirdi: *"Azərbaycan Respublikası ilə İngiltərə arasında sıx əlaqələrin yaradılması, ilk növbədə, ölkəmizin milli maraqları üçün çox vacibdir"*[1].

Prezident Heydər Əliyevin nəhəng səyləri nəticəsində BP şirkətinin də iştirak etdiyi "Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi" və Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri kimi böyük neft layihələri Azərbaycan Respublikasının Avropanın aparıcı enerji aktoruna çevrilməsinə töhfəsini verdi. Təbii sərvət olan neft ilk dəfə olaraq Azərbaycan xalqının milli sərvətinə çevrildi.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Böyük 'Britaniya ilə Azərbaycan Respublikası arasında enerji sahəsində əməkdaşlıq geniş vüsət aldı və müsbət nəticələr verdi. Öz növbəsində, bu, siyasi, mədəni, humanitar və elmi sahələrdə ikitərəfli münasibətlərin inkişafına təsir etdi.

Azərbaycan dövlətinin Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyasının hədəflərindən biri dövlət müstəqilliyini bərpa etmiş və zəif maliyyə imkanları olan ölkəyə tanınmış beynəlxalq şirkətlərdən investisiya cəlb etmək idi. Şübhəsiz ki, bu sahədə böyük xidmətlər tədqiq edilən illərdə uğurla fəaliyyət göstərən, Azərbaycanın ən böyük neft və qaz layihələrinin operatoru olan Britaniyanın BP şirkətinə məxsus olmuşdur. Britaniya şirkətləri tərəfindən qoyulmuş iri həcmli investisiyalar Azərbaycanın sosial-iqtisadi inkişafında müəyyən rol oynamışdır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *"Məqsədimiz yalnız neft çıxarmaq, nəql etmək və vəsait toplamaq deyil. Məqsədimiz neftdən gələn bütün gəlirləri – həm siyasi, həm iqtisadi, həm də digər resursları Azərbaycan xalqının gələcəyinə, rifahının yaxşılaşdırılmasına yönəltməkdir"*[2].

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 1. – 1997. – s. 414

[2] Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [101 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c.18. – 2014. – s. 262

Energetika sahəsində əməkdaşlıqda toplanmış təcrübəni öyrənmək və iki ölkə arasındakı əlaqələri daha da inkişaf etdirməkdən ötrü müvafiq nəticələr çıxarmaq vacibdir. Ona görə də Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin qurulması və inkişafında neft amilinin rolunun tədqiq edilməsi aktualdır.

Problemin tədqiqini aktual edən amillərdən biri onunla bağlıdır ki, vətən tarixşünaslığında iki ölkə arasındakı münasibətlərə həsr olunmuş bəzi əsərlər mövcud olsa da, 1991–2013-cü illərdə Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin rolu öyrənilməmişdir. Ona görə də Azərbaycan Respublikası ilə Böyük Britaniya arasındakı qarşılıqlı münasibətlərdə neft amilinin yeri və rolunun, eyni zamanda Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə Böyük Britaniyanın münasibətinin kompleks tədqiqi əhəmiyyətlidir.

Tədqiqatın aktuallığı həm də beynəlxalq münasibətlər tarixində Azərbaycan Respublikası və Böyük Britaniya arasındakı münasibətlərin dərindən öyrənilməsinin vacibliyi ilə bağlıdır. Çünki enerji layihələrinin hazırlanması və həyata keçirilməsinin səmərəliliyi birbaşa siyasi şəraitdən, ən başlıcası iki ölkə arasında münasibətlərin səviyyəsindən asılı olmuşdur. Bütün bu amillər 1991-2013-cü illərdə Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında münasibətlərdə neft amilinin rolunu araşdırmağı aktual edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığında tədqiq olunan problemin müəyyən tərəflərinin öyrənilməsinə baxmayaraq, kompleks və kifayət qədər dərin bir araşdırma aparılmamışdır. Təqdim olunan dissertasiya işi bu istiqamətdə ilk addım sayıla bilər. Problem araşdırılarkən Azərbaycanla Böyük Britaniya arasındakı münasibətlərdə tarixi ənənələri öyrənmək, ikitərəfli siyasi və iqtisadi əməkdaşlıq çərçivəsində fundamental məsələləri təhlil etmək, həmçinin münasibətlərin mövcud vəziyyətini və gələcək perspektivlərini şərtləndirən əsas amilləri müəyyənləşdirmək üçün bir çox əsərlərə müraciət olunmuşdur.

İlk növbədə Azərbaycan müəlliflərinin əsərlərinə diqqət yetirilmişdir. Məlum olduğu kimi, zəngin İngiltərə-Azərbaycan əlaqələri tarixinin öyrənilməsi əməkdaşlığın mövcud vəziyyətini

dərindən təhlil etməyə kömək edir. Ona görə də azərbaycanlı müəlliflərinin orta əsrlərdə, 1918-1920-ci illərdə Azərbaycanla İngiltərə arasındakı əlaqələrdə tarixi ənənələrin, həmçinin Azərbaycanda neft sənayesinin vəziyyətinin öyrənilməsinə həsr olunmuş əsərlərindən istifadə edilmişdir. Belə ki, Y.Mahmudovun[3] əsərində Səfəvi dövləti ilə İngiltərə də daxil olmaqla Avropa dövlətləri arasındakı əlaqələrin tarixinə nəzər yetirilmişdir.

Osmanlı-Səfəvi müharibələri dövründə İngiltərə ilə Səfəvi dövləti arasındakı ticarət və diplomatik əlaqələri D.Q.Həsənzadə araşdırmışdır[4].

M.Mehdizadənin kitabında[5] XX əsrin əvvəllərində Azərbaycan neftinin dünya siyasətindəki yeri və Böyük Britaniyanın mövqeyi izah edilmişdir.

Azərbaycanda neft sənayesinin inkişafı problemlərini, XIX əsrin sonları – XX əsrin əvvəllərində xarici, o cümlədən ingilis neft şirkətlərinin Azərbaycanda neft istehsalında fəaliyyətlərini M.İbrahimov və M.İsmayılov arxiv materialları əsasında araşdırmışlar[6].

M.Mirbabayevin kitabında Azərbaycan neftinin qısa tarixi və xarici kapitalın neft sənayesində iştirakı öyrənilmişdir[7].

M.C.Qasımovun əsərlərində[8] mötəbər tarixi mənbələr əsasında Birinci Dünya müharibəsi illərində Böyük Britaniyanın

---

[3] Махмудов, Я.М. Взаимоотношения государств Аккоюнлу и Сэфэвидов с западноевропейскими странами / Я.М.Махмудов. – Баку: БГУ, – 1991. – 264 с.

[4] Гасан-заде, Д.Г. Некоторые проблемы торгово-дипломатических отношений Англии с государством Сэфэвидов в период Османо-Сефевидских войн // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər, – 2002, №2, – s. 43-48.

[5] Mehdizadə, M. Beynəlmiləl siyasətdə petrol / M.Mehdizadə. – Bakı: Azərnəşr, – 1994. – 60 s.

[6] Ибрагимов, М. Нефтяная промышленность Азербайджана в период империализма / М.Ибрагимов. – Баку: ЭЛМ, – 1984. – 240 с.

[7] Mirbabayev, M. Azərbaycan neftinin qısa tarixi / M.Mirbabayev. – Bakı: İTRİ ARDNŞ, – 2008. – 335 s.

[8] Qasımov, M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər) [3 clddə] / M.Qasımov. – Bakı: Qanun, – c.1. – 2000. – 299 s.; Qasımov, M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər) [3 cilddə] / M.Qasımov. – Bakı: Adiloğlu, – c.2. – 2001. – 405 s.; Qasımov, M. Birinci dünya müharibəsi illərində böyük

Azərbaycandakı maraqlarını müəyyənləşdirən başlıca iqtisadi, siyasi və geostrateji amillər hərtərəfli təhlil edilmişdir. Müəllif qeyd edir ki, müharibənin son mərhələsində hərbi əməliyyatlar Mosul və Bakı neftinə sahib olmaq uğrunda aparılırdı və neft amili Böyük Britaniyanın Azərbaycan siyasətinin formalaşmasına həlledici təsir göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə iki ölkə arasında əlaqələrin yaradılması S.Z.Yusifzadənin kitablarında nəzərdən keçirilmişdir. Müəllif monoqrafiyanın bir fəslini iki dövlət arasında siyasi əlaqələrin qurulması və inkişafına həsr etmişdir. Bundan əlavə, əsərdə XIX əsrin sonları – XX əsrin əvvəllərində ingilis kapitalının Azərbaycanın neft sənayesinə nüfuz etməsinə diqqət yetirilmişdir[9].

G.Rizayevanın əsərində Böyük Britaniyanın Şərq siyasətində Azərbaycanın yeri, o cümlədən Birinci Dünya müharibəsi illərində və ondan sonra bu ölkənin Qafqaz siyasətinin mahiyyəti araşdırılmışdır[10].

Məlum olduğu kimi, Azərbaycan nefti məsələsi Birinci Dünya müharibəsindən sonra beynəlxalq və dövlətlərarası münasibətlərdə xüsusi yer tutmuşdur. Bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Azərbaycan neftinə dair məsələlərin müzakirəsi M.Qasımov[11] və Ş.Səlimovun[12] monoqrafiyalarında araşdırılmışdır. Həmin əsərlərdə Böyük Britaniyanın siyasəti, neft sahəsində əməkdaşlıq məsələlərinin də müzakirə olunduğu London, Genuya və Haaqa konfranslarındakı mövqeyi arxiv materialları əsasında öyrənilmişdir.

---

dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər) [3 cilddə] / M.Qasımov. – Bakı: Adiloğlu, – c.3. – 2001. – 532 s.

9 Юсифзаде, С. З. Азербайджано-британские отношения в начале XX века / С.З. Юсифзаде. – Баку: ТПП Тахсил, - 2008. – 128 с.; Юсиф-заде, С.З. Первая Азербайджанская Республика: история, события, факты англо-азербайджанских отношений / С.З. Юсиф-заде. - Баку: Маариф, - 1998. – 208 с.

10 Ризаева, Г.А. Азербайджанская политика Великобритании в начале XX века: / автореферат дис. на соискание ученой степени доктора философии по истории / Баку, 2009. – 27 с.

11 Qasımov, M. Xarici dövlətlər və Azərbaycan / M.Qasımov. – Bakı: Qanun, - 1998. – 356 s.

12 Səlimov, Ş. Azərbaycan nefti beynəlxalq münasibətlərdə (1920-1922-ci illər) / Ş.Səlimov. – Bakı: Bakı Universiteti, - 2005. – 160 s.

Monoqrafiyalarda qeyd olunur ki, beynəlxalq konfranslarda ingilis diplomatik, siyasi və neft dairələri Bakıda neft konsessiyaları almağa çalışsalar da, məqsədlərinə nail ola bilmədilər.

1991-ci ildə dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının neft strategiyasına, iki ölkə arasında əlaqələrin qurulmasına və inkişafı məsələlərinə bir sıra əsərlər həsr edilmişdir. Belə ki, iki cilddən ibarət olan "Heydər Əliyevin neft strategiyası"[13] kitabında ARDNŞ-lə xarici şirkətlər arasında 2001-ci ilə qədər imzalanmış müqavilələr və yeni neft strategiyasının həyata keçirilməsi prosesi haqqında məlumat verilmişdir. Əsərin ikinci cildində Heydər Əliyevin xarici neft şirkətlərinin nümayəndələri ilə enerji, o cümlədən beynəlxalq məsələlərin də müzakirə olunduğu görüşlər haqqında materiallar verilmişdir.

1991-2003-cü illərdə enerji siyasəti, xarici şirkətlərlə imzalanmış müqavilələr, BTC əsas ixrac neft boru kəmərinin tikintisi məsələləri M.Qasımlının ilk dəfə elmi dövriyyəyə gətirdiyi arxiv sənədlərindən istifadə edərək yazdığı Azərbaycan Respublikasının xarici siyasətindən bəhs edən əsərinin birinci cildində tədqiq edilmişdir. Əsərin ikinci cildində Böyük Britaniya və Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələrin qurulması və inkişafı məsələləri araşdırılmışdır[14].

Azərbaycan Respublikasının Böyük Britaniya ilə əlaqələri qısa olaraq Ə.Həsənovun əsərlərində araşdırılmışdır. Monoqrafiyalarda həmçinin Xəzərin enerji ehtiyatlarının istismarı və dünya bazarına çıxarılması və s. məsələlərə də diqqət yetirilmişdir[15].

---

[13] Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə [2 cilddə] / tərt.ed. Azərbaycan Respublikası Prezidentinin Katibliyi. – Bakı: Nurol, - c.1. – 2001. – 491 s. ; Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə [2 cilddə] / tərt.ed. Azərbaycan Respublikası Prezidentinin Katibliyi. – Bakı: Nurol, - c.2. – 2001. – 480 s.

[14] Гасымлы, М. Внешняя политика Азербайджана (1993-2003): [в 2 томах] / М. Гасымлы. – Москва: Инсан, - т.1. – 2016. – 704 с.; Гасымлы, М. Внешняя политика Азербайджана (1993-2003): [в 2 томах] / М. Гасымлы. – Москва: Инсан, - т.2. – 2016. – 720 с.

[15] Həsənov, Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996) / Ə.Həsənov. - Bakı: Azərnəşr, - 1998. – 315 s.; Həsənov, Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.M. Həsənov. - Bakı:

E.Məmmədlinin əsəri[16] 1991–2003-cü illərdə iki dövlət arasında əlaqələrin qurulması və inkişafına həsr olunsa da, Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin rolu araşdırılmamışdır.

1991-2003-cü illərdə Azərbaycan Respublikası və Böyük Britaniya münasibətləri barədə məlumatlar İ.Mirzəbəylinin kitabında verilmişdir[17]. Lakin bu əsərdə qarşılıqlı münasibətlərə neft amilinin təsiri tədqiqat obyekti deyildir.

Ə.Həbibbəyli geniş statistik materiallara istinad edərək iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələlərini araşdırmış və perspektivlərinin mövcudluğunu qeyd etmişdir. Lakin onun işində də neft amilinin münasibətlərin inkişafına təsiri tədqiq edilməmişdir[18].

Xarici şirkətlərlə imzalanan neft müqavilələri E.Nəsirovun əsərində öyrənilmiş və bir sıra ümumiləşdirilmiş nəticələr çıxarılmışdır[19].

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının neft strategiyasının hazırlanması və həyata keçirilməsi yolunda uzunmüddətli və davamlı diplomatik-siyasi fəaliyyətin ayrı-ayrı mərhələləri A.Ş.Yaqubovanın kitabında tədqiq edilmişdir[20]. Müəllif Böyük Britaniya ilə münasibətlərə müəyyən yer ayırsa da, bu ölkənin Azərbaycan siyasətində neft amilinin roluna xüsusi nəzər yetirməmişdir.

---

Azərbaycan nəşriyyatı, - 2005. – 752 s.; Həsənov, Ə.M. Azərbaycanın geoiqtisadiyyatı. Dərslik. / Ə.M.Həsənov. - Bakı: Zərdabi LTD MMC, - 2015.- 1056 s.; Həsənov Ə.M. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti.Bakı: Zərdabi LTD MMC, 2016. – 296 s.

[16] Məmmədli, E. Azərbaycan-Böyük Britaniya münasibətləri 1991-2003 / E. Məmmədli. – Bakı: Adiloğlu, - 2003. - 173 s.

[17] Azərbaycan-Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Tarixi xronika / tərt. ed. İ. Mirzəbəyli – Bakı: Azərbaycan-Böyük Britaniya Gənclər Cəmiyyəti, - 2001. – 449 s.

[18] Həbibbəyli, Ə. Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə iqtisadi əlaqələri / Ə.Həbibbəyli. – Bakı: Nurlan, - 2007. - 215 s.

[19] Nəsirov, E. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999) / E. Nəsirov. – Bakı: Respublika, - 1999. – 104 s.

[20] Yaqubova, A.Ş. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir / A.Ş.Yaqubova. - Bakı: Azərnəşr, - 2004.- 162 s.

Ə.Mehdiyevin monoqrafiyalarında XIX əsrin son rübündə Azərbaycanın neft sənayesinin vəziyyəti, xarici, o cümlədən ingilis kapitalının təsiri, "Əsrin müqaviləsi"nin imzalanmasını şərtləndirən amillər, Azərbaycan hökuməti ilə xarici şirkətlər arasında mərhələli danışıqlar zamanı yaranan çətinliklər, imzalanan müqavilənin əsas müddəaları, Azərbaycanın bölgədəki müxtəlif geosiyasi maraqların tarazlığını və öz mövqelərini qoruyub saxlamaq üçün göstərdiyi səylər araşdırılmışdır. "Əsrin müqaviləsi" və məhsul bölgüsünə dair sazişlərdən sonra Azərbaycanın neft-qaz sənayesinə kapital axınının güclənməsi, onların iqtisadi və siyasi mahiyyəti, müasir infrastrukturun yaradılması və yeni texnologiyaların tətbiqi nəticəsində geniş neft ixracı sistemi, hökumətin kənar təzyiqləri və maneələri aradan qaldırmaq üçün atdığı addımlar, görülən tədbirlərin ölkənin sosial-iqtisadi inkişafına, beynəlxalq mövqeyinə təsiri öyrənilmişdir. Lakin bu əsərdə də Böyük Britaniyanın Azərbaycan siyasətinə neft amilinin təsiri araşdırılmamışdır[21].

İsmayıl Musanın ali məktəblər üçün yazdığı üç cilddən ibarət dərsliyin üçüncü cildində Azərbaycan Respublikasının neft-qaz diplomatiyasının problemləri, ilkin nəticələri və perspektivləri, Böyük Britaniya ilə münasibətləri, əməkdaşlığın başlıca istiqamətləri araşdırılmışdır[22]. Dissertasiya işi yazılarkən əsərdən istifadə olunmuşdur.

C.Ələkbərov Böyük Britaniya və Azərbaycan Respublikası arasında 1991-2008-ci illərdə iqtisadi, siyasi və mədəniyyət sahələrində əlaqələri tədqiq etmişdir[23]. Tədqiqat işində neft sahəsində əməkdaşlıq məsələlərinə ümumi iqtisadi münasibətlər kontekstində

---

[21] Mehdiyev, Ə. B. Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə / Ə.B.Mehdiyev. - Bakı: Altay, - 2000. – 128 s.; Mehdiyev, Ə.B. Əsrin müqaviləsi: Azərbaycan neft strategiyasının təməl daşı / Ə.B.Mehdiyev. – Bakı: Turxan NPB, - 2014. - 248 s.

[22] İsmayıl, M. Azərbaycanın xarici siyasəti [3 cilddə] / Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – c.3. – 2011. – 776 s. İsmayıl, M. Azərbaycanın xarici siyasəti [3 cilddə] / Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. – Bakı: Bakı Universiteti Nəşriyyatı, – c.3. – 2011. – 776 s.

[23] Ələkbərov, C.M. Azərbaycan-Böyük Britaniya əlaqələri (1991-2008-ci illər) / C.M.Ələkbərov: / tarix üzrə fəlsəfə doktoru dis.avtoreferatı. / Bakı, 2018. – 25 s.

baxılmış, iki ölkə arasında münasibətlərin inkişafına neft amilinin təsiri araşdırılmamışdır.

Azərbaycan neftinin istismarı və bu sahədəki beynəlxalq əməkdaşlıq məsələləri C.Bəhramovun əsərlərində[24] öyrənilmişdir.

Təqdim edilən dissertasiya işinin müəllifi G.Musayevanın əsərlərində arxiv sənədlərindən və mötəbər mənbələrdən istifadə edilməklə 1991–2013-cü illərdə Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin yeri və rolu kompleks tədqiq olunmuşdur[25].

---

[24] Bəhramov, C.Ə. Azərbaycan nefti / C.Ə.Bəhramov. - Bakı: ARDNŞ, - 2010. - 352 s.; Bəhramov, C.Ə. Azərbaycan Respublikasinin milli neft sənayesi dövlət müstəqilliyinin bərpasinin ilk illərində (1991-1994-cü illər) // Bakı: Strateji təhlil, - 2016, № 3 (17), - s.45-50; Бахрамов, Дж.А. Из истории создания морской нефтяной промышленности в Азербайджане и за рубежом //- Bakı: Azərbaycan tarixinin problemləri. Məqalələr toplusu. Баку, - 1993. - с. 274-279; Бахрамов, Дж.А. Британо-азербайджанские экономические связи и нефтяной фактор // - Bakı: AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərlər, - 2016. 59-cu cild, - s.100-117; Bahramov J.A. The oil strategy of the republic of Azerbaijan and the Russian Federation’s policy on the south Caucasus (1994 - 2004) // . The Caucasus and the world. International Scientific journal, - 2014. № 17, - p. 36-42

[25] Мусаева, Г.М. Нефтяные интересы Великобритании на Южном Кавказе (1991-2013 гг.) // Qafqazşünasların I Beynəlxalq Forumunun materialları, - Bakı: - 17 aprel-18 aprel, - 2017, - c.1- s.224-229; Мусаева, Г.М. Азербайджан-Великобритания: первые шаги сотрудничества \\ - Bakı: Geostrategiya, - 2017. №04(40) iyul-avqust, - c.55-57; Мусаева, Г.М. Деятельность компании BP в нефтяном секторе Азербайджана (90-е гг. XX века) \\ Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr” mövzusunda beynəlxalq elmi konfrans, - Bakı: - 23-24 may, - 2018, s. 241-247.; Мусаева, Г.М. Нефтяные интересы Великобритании в Азербайджане: история и современность \\ - Самара: Научный аспект, 2019. № 2, т.8, - с.1011-1024; Мусаева, Г.М. Нефтяной фактор в политике Великобритании в Азербайджане: история и современность // - Москва: Вопросы национальных и федеративных отношений, 2019. № 10(55), - с. 1767-1774; Мусаева, Г.М. Политика Великобритании на Южном Кавказе (1917-1918 гг.) // Материалы Всероссийской научной конференции «Юг России в условиях потрясений, вооруженных конфликтов и социально-политических кризисов, 1917-2017 гг», - Ростов-на-Дону: -5 – 6 октября, - 2017, - с. 41-46.; Мусаева, Г.М. Проект Баку-Тбилиси-Джейхан и страны Большого Кавказа // Материалы V Международного форума историков-кавказоведов «Большой Кавказ:

Dissertasiya işi yazılarkən xarici ölkə müəlliflərinin əsərlərindən də istifadə edilmişdir. Rusiya, Böyük Britaniya, ABŞ və Kanada tədqiqatçıları olan A.Sivkov[26], A.Rayevski[27], A.A.Fursenko[28], D.Yergin[29], T.Vaynqard[30], M.Basxanov[31] və b. zəngin faktoloji materialları olan əsərləri dünyada yürüdülən neft siyasətini öyrənmək baxımından əhəmiyyətlidir. Belə ki, A.Sivkov XIX əsrin sonları – XX əsrin əvvəllərində dünyada neft mənbələri uğrunda gedən şiddətli mübarizəni tədqiq etmişdir. A.Rayevski 1918–1920-ci illərdə İngiltərənin Azərbaycan siyasətini araşdırmış və neft amilinin vacib rolunu qeyd etmişdir. A.A.Fursenko XIX əsrin sonları – XX əsrin əvvəllərində dünyada neft mənbələri uğrunda gedən mübarizəni tədqiq etmiş, həmçinin ingilis şirkətlərinin maraqlarını da araşdırmışdır. D.Yergin öz əsərində neftin dünya siyasətinə, həmçinin XX əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələrə təsirindən də bəhs etmişdir. T.Vaynqardın monoqrafiyasında Britanyanın Şərqdəki maraqları, Birinci Dünya müharibəsi ərəfəsində və illərində ingilis kapitalının və şirkətlərinin Azərbaycanın neft sənayesinə nüfuz etməsini şərtləndirən əsas amillər tədqiq edilmişdir. Müəllif müharibənin neft mənbələrinin ələ keçirilməsi uğrunda aparıldığını da qeyd etmişdir. M.Basxanov 1918–1920-ci illərdə Britaniya ekspedisiya korpusu tərəfindən

---

пространство взаимодействия цивилизаций и народов», - Ростов-на-Дону: - 15-16 ноября, - 2017, с. 319-325.

[26] Сивков, А. Мировая борьба за нефть / А.Сивков. - Ленинград: Редакционно-Издательский отдел морских сил РККФ, - 1926. - 120 с.

[27] Раевский, А. Английская интервенция и мусаватское правительство / А. Раевский. - Баку, - 1927. – 192 с.

[28] Фурсенко, А.А. Нефтяные тресты и мировая политика (1880-е годы-1918 г.) / А.А. Фурсенко. - Москва: Наука, - 1965. - 496 с.

[29] Ергин, Д. Добыча: всемирная история борьбы за нефть, деньги и власть \ Д.Ергин. – Москва: Альпина Паблишер, - 2019. - 944 с.

[30] Winegard, T.C. The first world oil war / T.C.Winegard. – London: University of Toronto Press, - 2016. – 285 p.

[31] Басханов, М. Между хаосом и созиданием: Азербайджан в 1918-1920 гг. по материалам британских архивов // Qafqazşünasların birinci beynəlxalq forumunun materialları, - Bakı: - 17-18 aprel, - 2017, - s. 47-53.

Bakının iki dəfə işğala məruz qalmasını, onun baş verən hadisə və proseslərə təsirini araşdırmışdır.

Beləliklə, tədqiq olunan problemlə bu və ya başqa dərəcədə əlaqəli olan əsərlərin öyrənilməsi göstərir ki, 1991–2013-cü illərdə Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin rolu həm ölkə, həm də xarici tarixşünaslıqda ayrıca tədqiqat işi kimi kompleks şəkildə araşdırılmamışdır. Ona görə də təqdim olunan dissertasiya işi bu istiqamətdə əhəmiyyətli bir addımdır.

Dissertasiya işi yazılarkən mənbələrdən geniş istifadə edilmişdir. Həmin mənbələri aşağıdakı kimi təsnifləşdirmək olar: Ümummilli lider Heydər Əliyevin əsərləri[32]; Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əsərləri; Milli Məclis arxivinin materialları; Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin sənədləri[33]; imzalanmış neft müqavilələri; Azərbaycan Respublikası Nazirlər Kabinetinin illik hesabatları; BP şirkətinin illik hesabatları; Böyük Britaniya hökumətinin rəsmi saytlarında yerləşdirilmiş məlumatları; beynəlxalq təşkilatların saytlarında yerləşdirilmiş sənədləri; dövri nəşrlərin materialları.

Ümummilli Lider Heydər Əliyevin çoxcildlik əsəri Azərbaycan Respublikası və Böyük Britaniya arasında münasibətləri, eləcə də

---

[32] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 1. – 1997. – 612 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 2. – 1997. – 604 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 5. – 1998. – 500 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 6. – 1998. – 512 s.; Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 16. – 2005. – 552 s.

[33] Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi 2004 [2 cilddə] / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. – Bakı: “GARİSMA” MMC, - c. 1. – 2009. – 798 s.; Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi 2005 [2 cilddə] / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. – Bakı: “GARİSMA” MMC, - c. 1. – 2009. – 648 s.; Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi 2007 [2 cilddə] / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. – Bakı: “GARİSMA” MMC, - c. 1. – 2009. – 703 s.; Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi 2008 [2 cilddə] / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. – Bakı: “GARİSMA” MMC, - c. 1. – 2009. – 655 s.; Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi 2008 [2 cilddə] / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. – Bakı: “GARİSMA” MMC, - c. 2. – 2009. – 440 s.

neft sahəsində əməkdaşlığı öyrənmək üçün vacib mənbədir. Bu kitablarda iki ölkə arasındakı münasibətlərdə neft amilinin yeri və rolu, Azərbaycanın enerji siyasətinin mahiyyəti, imzalanan neft müqavilələri, onların əhəmiyyəti, xarici şirkətlərlə əməkdaşlıq, habelə Azərbaycan Respublikası və Böyük Britaniya arasında münasibətlərin inkişafını müəyyənləşdirən amillər öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanın Xəzər nefti"[34] monoqrafiyası və çoxcildlik əsəri[35] problemin öyrənilməsində mühüm mənbədir. Bu əsərlərdə iki dövlət arasındakı münasibətlərin təməl prinsipləri, başlıca istiqamətləri, neft müqavilələrinin imzalanmasının əsas məqsədləri müəyyənləşdirilmiş, neft sənayesinin yenidən qurulması, "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil olunan neft, ARDNŞ və ABƏŞ-in fəaliyyəti, Bakı-Novorossiysk, Bakı-Supsa neft boru, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərləri məsələləri hərtərəfli nəzərdən keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin illik hesabatları Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin rolunu öyrənmək üçün mötəbər mənbədir. Hesabatlarda iki dövlət arasında əməkdaşlığın inkişafının başlıca istiqamətləri və dinamikası verilmişdir.

İmzalanmış neft müqavilələri parlamentdə təsdiq olunduğuna görə dissertasiya işi yazılarkən Milli Məclisin arxiv materiallarından geniş istifadə edilmişdir. Onların bir çoxu ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmişdir. Həmin sənədlərdə neft müqavilələrinin müzakirəsi prosesində parlament üzvlərinin çıxışları öz əksini tapmışdır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin sənədləri problemin öyrənilməsində əsas mənbələrdən biridir. Ona görə də

---

[34] Алиев, И.Г. Каспийская нефть Азербайджана / И.Г.Алиев. – Москва: Известия, - 2003. – 712 с.

[35] Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [101 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c.5. – 2010. – 392 s.; Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [101 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c.14. – 2013. – 400 s.; Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [101 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c.18. – 2014. – 424 s.; Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [101 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c.47. – 2017. – 400 s.; Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [101 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c.64. – 2018. – 396 s.; Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [101 cilddə] / İ.H.Əliyev. – Bakı: Azərnəşr, c.83. – 2019. – 392 s.

tədqiq olunan illərdə Azərbaycan Respublikası və Böyük Britaniya arasında imzalanan müqavilə, saziş, bəyannamə, kommünike və digər sənədlərin toplandığı sənədlər məcmuəsindən geniş istifadə edilmişdir.

Dissertasiya işi yazılarkən BP şirkətinin 2001–2013-cü illərdə Azərbaycandakı fəaliyyətinə dair məlumatları əks etdirən sənəd və materiallar da elmi dövriyyəyə gətirilmişdir. Şirkətin illik hesabatlarında onun Azərbaycanda həm neft, həm də qeyri-neft sektorunda, müəyyən sosial-humanitar və regional inkişaf proqramlarında iştirakına dair dolğun məlumat verilmişdir.

Böyük Britaniya hökumətinin rəsmi saytlarında yerləşdirilən məlumatlar bu ölkənin Azərbaycan siyasətinin başlıca istiqamətlərini araşdırmaq, dövlətin rəsmi dairələrinin mövqeyini öyrənmək üçün vacib mənbədir.

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə Böyük Britaniyanın mövqeyini öyrənmək üçün bəzi beynəlxalq təşkilatların sənədlərindən istifadə edilmişdir.

Dissertasiyada həmçinin iki ölkə arasında münasibətlərin müxtəlif tərəflərinə dair məlumat və məqalələrin olduğu dövri mətbuat materiallarından da istifadə olunmuşdur.

Beləliklə, mənbələrin öyrənilməsi və təhlili göstərir ki, Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin rolunun dərindən öyrənilməsi əhəmiyyətli və aktualdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti 1991-2013-cü illərdə Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin öyrənilməsidir.

Tədqiqatın predmeti iki ölkə arasında münasibətlərin yaradılmasını və inkişafını şərtləndirən amillər, Böyük Britaniyanın enerji siyasətində Azərbaycan Respublikasının yeri və rolu, Britaniya şirkətləri və Azərbaycan hökuməti arasında imzalanan neft müqavilələri, BP şirkətinin Azərbaycandakı fəaliyyəti, siyasi və iqtisadi münasibətlərin genişlənməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Böyük Britaniyanın mövqeyidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi 1991-2013-cü illərdə Böyük Britaniyanın Azərbaycan

siyasətində neft amilinin rolunu araşdırmaqdır. Qarşıya qoyulmuş məqsədə nail olmaqdan ötrü aşağıdakı konkret vəzifələrin həllinə cəhd göstərilmişdir:

- Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrə dair müxtəlif dillərdə olan mənbə və ədəbiyyatları öyrənmək, təsnifləşdirmək və təhlil etmək;
- ikitərəfli münasibətlərin tarixi təcrübəsini və İngiltərənin Şərq siyasətində Azərbaycan neftinin tutduğu yeri nəzərdən keçirmək;
- Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra iki dövlət arasında münasibətlərin yaradılmasını şərtləndirən amilləri araşdırmaq;
- Böyük Britaniyanın enerji siyasətində Azərbaycan Respublikasının yerini və rolunu müəyyənləşdirmək;
- imzalanmış neft müqavilələrinin mahiyyətini, onların siyasi və iqtisadi tərəflərini təhlil etmək;
- BP şirkətinin Azərbaycan Respublikasında neft və qeyri-neft sektorundakı fəaliyyətini araşdırmaq;
- iki dövlət arasında siyasi və iqtisadi əməkdaşlığın inkişafına neft amilinin təsirini tədqiq etmək;
- Böyük Britaniya hökumətinin Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqeyi və bu məsələyə neft amilinin təsirini araşdırmaq;
- iki ölkə arasında münasibətləri daha da inkişaf etdirməkdən ötrü elmi əsaslandırılmış təkilflər vermək.

**Tədqiqatın metodları.** Dissertasiya işi yazılarkən beynəlxalq münasibətlər tarixinin öyrənilməsində qəbul edilmiş ümumi elmi yanaşmalar tətbiq edilmişdir. Əsasən aşağıdakı elmi-tədqiqat metodlarından istifadə olunmuşdur: tarixi-xronoloji, tarixi-genetik, tarixi-müqayisəli, kontent-təhlil, tənqidi təhlil, əldə olunan nəticələrin ümumiləşdirilməsi, proqnozlaşdırma.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- Soyuq müharibənin başa çatması və SSRİ-nin dağılması nəticəsində yeni müstəqil dövlətlərin yaranması Böyük Britaniyanın Cənubi Qafqaz siyasətini yenidən fəallaşdırdı. 1918-1920-ci illərdə olduğu kimi Azərbaycanın zəngin təbii sərvətləri ingilis hökumətinin marağını cəlb etdi. Neft maraqları Böyük Britaniyanın Azərbaycana

münasibətdə siyasətinin formalaşmasına təsir edən başlıca amil olmuşdur;

- Azərbaycanın neft yataqlarının işlənməsi iki dövlət arasında əməkdaşlığın əsas istiqamətlərindən biri olmuşdur. Azərbaycan hökuməti ingilis şirkətləri, əsasən də BP ilə böyük müqavilələr imzalamışdır. BP şirkəti ən böyük neft-qaz layihələrində operator seçilmiş və ən yüksək investisiya payına malik olmuşdur. Neft sektoru ilə yanaşı şirkət həmçinin Azərbaycanda sosial, humanitar proqramların həyata keçirilməsində iştirak etmiş, işsizliyə qarşı mübarizədə hökümətin xəttini dəstəkləmiş, qaçqın və məcburi köçkünlərin həyatının yaxşılaşdırılması üçün səylər göstərmişdir;

- enerji sahəsindəki əməkdaşlıq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Böyük Britaniyanın ədalətli mövqe tutmasında müəyyən rol oynamışdır. Böyük Britaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ilk növbədə problemin qoyuluşu ilə müəyyən edilir. Vətən tarixşünaslıqda ilk dəfə olaraq 1991–2013-cü illərdə Böyük Britaniyanın Azərbaycan siyasətində neft amilinin yeri və rolu, iki ölkə arasında əməkdaşlığın müsbət və mənfi tərəfləri ətraflı araşdırılmışdır. Dissertasiyada ilk dəfə:

- mötəbər mənbə və ədəbiyyatların öyrənilməsi və təhlilindən belə qənaətə gəlinir ki, Azərbaycan zəngin neft sərvətinə və geosiyasi mövqeyinə görə Böyük Britaniyanın xarici siyasətində mühüm yer tutmuşdur;

- ənənəvi siyasətinə sadiq qalan Böyük Britaniya Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra da ikitərəfli münasibətlər qurarkən neft amilini əsas götürmüşdür;

- ingilis şirkətləri ilə Azərbaycan hökuməti arasında 2013-cü ilə qədər imzalanmış neft müqavilələri, onların Azərbaycan Respublikasının xarici siyasətinə, beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə, iqtisadi potensialının artırılmasına, bir sıra sosial problemlərin həllinə təsiri ilk dəfə araşdırılmışdır.

- Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqeyə neft amilinin də təsir etdiyi qənaətinə gəlinmişdir;

- BP şirkətinin Azərbaycan Respublikasında həm neft, həm də qeyri-neft sektorundakı fəaliyyəti təhlil edilmişdir. Belə bir nəticə çıxarılır ki, BP şirkətinin Azərbaycan Respublikasında həyata keçirdiyi genişmiqyaslı sosial-humanitar proqramlar dövlətlərarası münasibətlərin möhkəmlənməsinə təsir göstərmişdir;

- iki dövlət arasında əməkdaşlığın ikitərəfli və çoxtərəfli əsasda həyata keçirilməsinə neft amilinin təsir etdiyi göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəalarından, nəticə və elmi ümumiləşdirmələrindən gələcək elmi tədqiqatlarda, beynəlxalq münasibətlər tarixinə dair ümumiləşdirilmiş əsərlərin, ali təhsil müəssisələrində mühazirə və seminarların hazırlanmasında, dərslik və dərs vəsaitlərinin yazılmasında istifadə edilə bilər. Dissertasiya işinin materialları Xarici İşlər Nazirliyi sistemində, Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin, parlament diplomatiyasının, müxtəlif ictimai, qeyri-hökumət təşkilatlarının fəaliyyətində və KİV-də təbliğat işində faydalı olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları və nəticələri 21 elmi məqalə və tezisdə öz əksini tapmışdır. Rusiya və Ukraynadakı elmi jurnallarda 3, Azərbaycanda 5 məqalə, Türkiyə, Rusiya və Ukraynada keçirilən beynəlxalq konfransların materiallarında 5 məqalə, Azərbaycanda isə 3 məqalə və 5 tezis dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasında yerinə yetirilmişdir.

**Dissertasıyanın ümumi həcmi.** Dissertasiya giriş, 6 paraqrafı birləşdirən 3 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Girişdə 26 631, birinci fəsildə 84 878, ikinci fəsildə 61 295, üçüncü fəsildə 47 256, nəticədə 16 703 simvol vardır. İşin ümumi həcmi (qısaltmalar, biblioqrafiya və cədvəllər istisna olmaqla) 236 763 simvoldan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, öyrənilmə dərəcəsi təhlil edilmiş, mənbə bazası, məqsəd və vəzifələri, müdafiə üçün irəli sürülmüş əsas müddəalar, istifadə edilən metodlar, elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti verilmişdir.

**"Azərbaycan Böyük Britaniyanın xarici siyasətində"** adlanan birinci fəsil iki paraqrafdan ibarətdir. **"İkitərəfli münasibətlərin tarixi aspektləri"** adlanan birinci paraqrafda İngiltərənin orta əsrlərdə Azərbaycanla əlaqələri, XIX əsrin sonlarından başlayaraq Azərbaycanda neft maraqlarının formalaşması, ingilis şirkətlərinin neft sənayesində iştirakı, Birinci Dünya müharibəsi illərində İngiltərənin planlarında Azərbaycanın yeri və rolu, bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Bakı neft mənbələri uğrunda mübarizə məsələləri öyrənilmişdir. İngiltərə-Azərbaycan münasibətlərinin dərin tarixi keçmişə və zəngin bir ənənəyə malik olduğu qeyd olunmuşdur. Vurğulanmışdır ki, XIX əsrin sonları – XX əsrin əvvəllərində İngiltərə Cənubi Qafqaza dair planlarını reallaşdırmaq cəhdlərini davam etdirmişdir. Birinci Dünya müharibəsi illərində Azərbaycan böyük dövlətlərin planlarına daxil edilmişdir. 1918-ci ilin əvvəllərində Azərbaycan mübarizə meydanına çevrilmişdir. XX əsrin əvvəllərində Böyük Britaniyanın Azərbaycan siyasətinin aşağıdakı amillərə əsaslandığı vurğulanmışdır: neft maraqları; İranda və Mesopotamiyada orduların maliyyələşdirilməsi məqsədi ilə Bakının neft mənbələrinin əldə edilməsi; Hindistanın müdafiəsi üçün Azərbaycanın strateji əhəmiyyəti; Qafqazda bolşeviklərin və türklərin təsirinin dayandırılması. Qeyd edilmişdir ki, ingilis qoşunları Bakını tutduqdan sonra neft ehtiyatlarını mənimsəməyə və Mərkəzi Asiyaya çıxış əldə etməyə çalışırdılar. 1919-cu ilin yayında ingilis qoşunları Azərbaycanı tərk etdikdən sonra da müxtəlif yollarla Bakı neft sənayesində möhkəmlənməyə və digər dövlətlərin Bakı neftini ələ keçirməsinin qarşısını almağa çalışırdılar. Yazılır ki, 1920-ci ilin aprelində Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra neft sənayesi milliləşdirildi və sovet Rusiyasının nəzarətinə

keçdi. XX əsrin 20-ci illərində Azərbaycan nefti məsələsi İngiltərə nümayəndə heyətinin də iştirak etdiyi London, Genuya və Haaqada keçirilən beynəlxalq konfranslarda müzakirə edilmişdir.

Qeyd olunur ki, sovet dövründə Azərbaycan nefti beynəlxalq əməkdaşlıqdan təcrid olunaraq Mərkəzin nəzarəti altında qalmışdır. Soyuq müharibə başa çatdıqdan sonra yaranmış yeni beynəlxalq şəraitdə Azərbaycanın neft mənbələri yenidən Böyük Britaniyanın maraq dairəsinə düşmüşdür.

Fəslin **"Böyük Britaniyanın Azərbaycan Respublikası ilə dövlətlərarası münasibətlərinin qurulması və ilk addımları"** adlı ikinci paraqrafında dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası və Böyük Britaniya arasında münasibətlərin qurulması və inkişafı araşdırılmış, 90-cı illərdə iki dövlət arasında əməkdaşlığın yaradılmasına təsir edən amillər təhlil edilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa olunduqdan sonra birbaşa münasibətlərin qurulması üçün ilkin şərtlər yarandı və ilk addımlar atıldı. 1991-ci ilin dekabrın 31-də Böyük Britaniya Avropa İttifaqının digər ölkələri ilə birlikdə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. Bundan sonra ingilis şirkətləri əməkdaşlıq müqavilələri imzalamaq üçün fəaliyyətlərini genişləndirdilər. Belə ki, 1992-ci ilin sentyabrında Birləşmiş Krallığın keçmiş Baş naziri Marqaret Tetçer Bakıya səfər etdi[36]. O, Azərbaycan hökuməti ilə Böyük Britaniyanın BP şirkəti və Norveçin Statoil şirkəti arasında Xəzərin Azərbaycan sektorunda "Çıraq" yatağındakı və "Şahdəniz" perspektiv sahəsindəki ehtiyatların dəqiqləşdirilməsinə dair müqavilələrin imzalanması mərasimində iştirak etdi.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Böyük Britaniya və Azərbaycan Respublikası arasındakı münasibətlərdə yeni bir səhifə açdı. Prezident Heydər Əliyevin 1994-cü il 22-25 fevral tarixlərində Böyük Britaniyaya ilk rəsmi səfəri qarşılıqlı münasibətlərdə, o cümlədən neft sahəsində əməkdaşlıqda mühüm rol oynadı. Səfərin məqsədlərini Pezident Heydər Əliyev aşağıdakı kimi qiymətləndirirdi: *"... Azərbaycan Prezidentinin Böyük*

---

[36] Azərbaycan-Böyük Britaniya: əmədaşlıq və tərəfdaşlıq (1991-2001). Tarixi xronika / tərt. ed. İ. Mirzəbəyli – Bakı: Azərbaycan-Böyük Britaniya Gənclər Cəmiyyəti, - 2001. – s. 10-11

*Britaniyaya səfəri respublikamızla Böyük Britaniya arasında əlaqələr qurmaq və inkişaf etdirmək məqsədi daşıyır... İngiltərə dünyanın ən böyük dövlətlərindən biridir. O, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir, dünyanın ən inkişaf etmiş yeddi ölkəsindən biridir. İngiltərə həm keçmiş tarixi ilə, həm də hazırkı vəziyyəti ilə dünya siyasətinə və iqtisadiyyatına çox güclü təsir göstərir. Buna görə də Azərbaycan Respublikası ilə İngiltərə arasında sıx əlaqələrin yaradılması, ilk növbədə, ölkəmizin milli maraqları üçün çox vacibdir”*[37].

Səfər zamanı iki dövlət arasında münasibətlərin müqavilə-hüquq bazasını təşkil edən sənədlər imzalandı. Bu baxımdan “Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında dostluq və əməkdaşlıq haqqında birgə Bəyannamə” xüsusi əhəmiyyət kəsb edirdi. Tədqiqat işində bu və digər sənədlərin təhlili aparılmışdır.

Dissertasiyada Prezident Heydər Əliyevin 1995-ci il 28 noyabr – 3 dekabr tarixlərində Londona səfəri öyrənilmişdir. Səfərin məqsədi barədə Heydər Əliyev deyirdi: *“Bu tədbir Azərbaycanı dünya iqtisadiyyatına inteqrasiya etmək, eləcə də dünyanın hər yerindən Azərbaycana gələn investorların maraqlarını müəyyənləşdirmək məqsədi ilə təşkil edilib... İnanıram ki, London konfransı bu məsələni daha yüksək səviyyəyə qaldırmaq üçün yaxşı imkanlar təmin edəcəkdir. Ümid edirəm ki, orada keçirilən görüşlər yaxşı nəticələr verəcək”*[38].

Qeyd olunmuşdur ki, Prezident Heydər Əliyevin 1998-ci il 19-24 iyul tarixlərində Böyük Britaniyaya ikinci rəsmi səfəri[39] ilə iki dövlət arasındakı münasibətlərdə yeni bir səhifə açılmışdır. Qarşılıqlı münasibətlər zəngiləşdirilmişdir.

Aparılan tədqiqatlar göstərir ki, Böyük Britaniyanın Azərbaycandakı maraqları bir sıra amillərlə şərtlənmişdir.

---

[37] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 1. – 1997. – s. 414

[38] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 5. – 1998. – s. 15

[39] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 16. – 2005. – s. 121

Azərbaycan nəhəng neft ehtiyatları ilə zəngin bir ölkə olsa da, neft sənayesinin inkişafı, habelə neftin dünya bazarına çıxarılması üçün kifayət qədər maliyyə vəsaiti və texniki imkanları mövcud deyildi. Britaniya hökuməti ingilis şirkətləri vasitəsi ilə iqtisadi mənfəət əldə etmək üçün neft sənayesinin inkişafını maliyyələşdirməkdə və dəstəkləməkdə maraqlı idi. Azərbaycanın dövlət müstəqilliyinin bərpası Böyük Britaniyanın siyasətini həyata keçirməsi üçün yeni imkanlar açdı. Ermənistanla müharibə vəziyyətində, daxili siyasi xaos içində olan və xaricdən təzyiqlərə məruz qalan Azərbaycan Respublikası üçün belə əməkdaşlıq əhəmiyyətli idi. Təbii sərvət olan neftin milli sərvətə çevrilməsində Azərbaycan Qərbin dəstəyinə ehtiyac duyurdu.

Dissertasiyanın **"Böyük Britaniyanın neft siyasətində Azərbaycan Respublikasının yeri"** adlanan və iki paraqrafdan ibarət olan ikinci fəslinin **"Britaniya şirkətlərinin Azərbaycan hökuməti ilə neft müqavilələri"** adlı birinci paraqrafında imzalanan neft müqavilələri, onların siyasi və iqtisadi əhəmiyyəti araşdırılmışdır. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanın neft sənayesində dərin bir böhranın yaşandığı qeyd olunmuşdur. O vaxt Bakıya gələn əcnəbi mütəxəssislər qeyd edirdilər ki, Azərbaycan neft sənayesinin müasir avadanlıqlarla təchiz olunması baxımından neft-qaz ölkələrindən 50 il geri qalır. Bu amillər nəzərə alınmaqla, mövcud vəziyyətdən çıxış yolu kimi Azərbaycanın neft sənayesinə xarici kapitalın cəlb edilməsi, neft hasilatını və emalını artırmaqla onun dünya bazarına çıxarılması nəzərdən keçirilmişdir.

Prezident Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş neft strategiyasının əsası 1994-cü il 20 sentyabr tarixində Gülüstan sarayında sonradan "Əsrin müqaviləsi" adını alan müqavilənin imzalanması ilə qoyulmuşdur. Müqavilə 1994-cü il dekabrın 2-də təsdiqlənmiş və qüvvəyə minmişdir. Konsorsium üzvləri arasında 1995-ci ilin yanvarında imzalanan "Əməliyyatların birgə keçirilməsi haqqında saziş"ə əsasən, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti

(ABƏŞ) həmin ilin fevralında fəaliyyətə başlamışdır[40]. İlk dəfə olaraq xarici şirkətlər konsorsium yaratmışlar.

Dissertasiya işində sonrakı illərdə müxtəlif yataqlara dair imzalanan müqavilələr təhlil edilmişdir. Belə ki, 1996-cı il iyunun 4-də 5 şirkət arasında "Şahdəniz" perspektiv sahəsinin pay bölgüsü haqqında imzalanmış sazişə əsasən BP\Statoil alyansının payı 51% olmuşdur[41]. Bu müqavilədə aparıcı rolun BP/Statoil alyansında olması Böyük Britaniya ilə əməkdaşlığın göstəricilərindən biri idi.

Tədqiqat işində Prezident Heydər Əliyevin 1998-ci ilin iyul ayında Böyük Britaniyaya səfəri zamanı imzalanan üç müqavilə təhlil edilmişdir. Qeyd olunmuşdur ki, səfərdən sonra Prezidentin 1998-ci il 25 avqust tarixində "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" Fərman imzalaması[42] qarşılıqlı münasibətlərin genişləndirilməsinə xüsusi əhəmiyyət verildiyini göstərirdi.

Aparılan araşdırma ingilis şirkətlərinin Azərbaycanın ən böyük neft yataqlarına dair müqavilələrin imzalanmasında fəal iştirak etdiyini və yatırılan investisiyaların həcminə görə birinci yerdə olduğunu göstərir. Britaniya şirkəti olan Ramco eyni zamanda ABƏŞ-in – "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" sazişin şərtlərini həyata keçirmək üçün yaradılan konsorsiumun həmtəsisçisidir.

Dissertasiya işində yazılır ki, Azərbaycan Respublikasının enerji strategiyasının başlıca istiqamətlərindən biri də neftin dünya bazarına nəqli olmuşdur. Fakt və materialların əsasında bu strategiyanın həyata keçirilməsinə törədilən əngəllər araşdırılmışdır.

---

[40] Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə [2 cilddə] / tərt.ed. Azərbaycan Respublikası Prezidentinin Katibliyi. – Bakı: Nurol, - c.1. – 2001. – s. 26

[41] Şahdəniz layihəsi (SD): [Elektron resurs] / URL: https://www.sgc.az/az/layihe/sd

[42] Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Respublika. – 1998, 26 avqust. – s. 2.

Göstərilmişdir ki, bütün təzyiqlərə baxmayaraq Azərbaycan neft strategiyasını həyata keçirmişdir.

Fəslin "**BP şirkətinin Azərbaycanda fəaliyyəti**" adlı ikinci paraqrafında BP-nin Azərbaycan Respublikasında fəaliyyətinin əsas sahələri, ölkədə reallaşdırdığı neft-qaz layihələri, sosial və humanitar proqramlar araşdırılmışdır. Qeyd olunmuşdur ki, BP şirkətinin fəaliyyəti Azərbaycanda neft və qaz sənayesində böyük layihələrdə iştirakı ilə yanaşı aşağıdakı sahələrdə də həyata keçirilmişdir: hökumətlə qarşılıqlı əlaqə; neft gəlirlərinin şəffaflığını təmin etmək; sosial investisiyalar; milli və regional inkişaf; yerli biznesin inkişafı və s. BP-nin fəaliyyəti Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafında mühüm rol oynamışdır. Tədqiq olunan illərdə Azərbaycan Respublikası ilə BP şirkəti arasında əməkdaşlıq qarşılıqlı dəstək, etimad, maraqlar əsasında qurulmuş və bu, digər sahələrdəki münasibətlərə də faydalı təsir etmişdir. Şirkət tərəfindən Azərbaycana qoyulan investisiyalar böyük gəlir gətirmişdir. Neft sektorunun ən böyük sərmayəçisi və qeyri-neft sektorundakı investisiya portfelində ikinci yeri tutan BP-nin fəaliyyəti qarşılıqlı münasibətləri möhkəmləndirmişdir. O da vurğulanmışdır ki, BP şirkəti operator kimi seçildiyi aparıcı layihələrdə fəal rol oynamışdır. AÇG, "Şahdəniz", BTC, BTE və Cənubi Qafqaz Qaz Boru Kəməri kimi böyük layihələrdə BP öhdəliklərini yerinə yetirmişdir. Bundan əlavə, tədqiq edilən illərdə konsorsiumla birlikdə sosial proqramlara, regional inkişafa, ətraf mühitin qorunmasına və s. böyük investisiyalar qoyulmuşdur. BP-nin fəaliyyəti göstərir ki, Böyük Britaniya ilə Azərbaycan Respublikası arasındakı münasibətlərin maddi təməlləri möhkəmdir və bu əlaqələrin gələcək inkişafı üçün böyük potensial vardır.

**"Neft amilinin Böyük Britaniya-Azərbaycan münasibətlərinin inkişafına təsiri"** adlanan üçüncü fəsil iki paraqrafdan ibarətdir. **"İki dövlət arasında siyasi və iqtisadi münasibətlərin genişləndirilməsi"** adlanan birinci paraqrafda neft amilinin iki dövlət arasındakı həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığa təsiri araşdırılmışdır. Tədqiq olunan illərdə neftin Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafında başlıca amil olduğu qeyd edilmişdir. Azərbaycanın

əlverişli coğrafi-siyasi mövqeyi və zəngin təbii sərvəti Qərb bazarlarına neftin nəqli üçün yeni imkan olmuş və Yaxın Şərq neftindən asılılığını azaltmaq üçün alternativ rolunu oynamışdır. Ona görə də Azərbaycanda neft və qaz ehtiyatlarının inkişafında, onun Rusiya və İran ərazilərindən yan keçərək Avropa bazarlarına çıxışının təmin edilməsində Böyük Britaniya strateji maraqlarını güdmüşdür.

İki ölkə arasında əməkdaşlığın möhkəmləndirilməsi baxımından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniyaya rəsmi və işgüzar səfərləri böyük əhəmiyyət daşımışdır. Dissertasiya işində Prezident İlham Əliyevin 2004, 2009 və 2012-ci illərdəki iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsində mühüm rol oynayan səfərləri təhlil edilmişdir. Belə bir qənaətə gəlinmişdir ki, həmin səfərlər münasibətlərdə yeni keyfiyyət mərhələsi açmışdır.

Aparılan tədqiqatlar göstərir ki, araşdırılan illərdə iki dövlət arasındakı münasibətlərdə enerji təhlükəsizliyi sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verilmişdir. Hər iki ölkənin beynəlxalq səviyyədə ümumi maraqları olmuşdur.

Qeyd edilmişdir ki, neft amili digər sahələrdə də əməkdaşlığın inkişafına təsir etmişdir. Dünyada sərbəst ticarətin sütunu kimi tanınan Böyük Britaniya ilə enerji, ticarət, sənaye və iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq Azərbaycan üçün xüsusi əhəmiyyət daşımışdır. Belə ki, 2011-ci ildə Böyük Britaniya 501 milyon ABŞ dollarlıq ticarət dövriyyəsi ilə Azərbaycanın dünyada 15-ci, Avropada 4-cü ən böyük tərəfdaşı olmuşdur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2012-ci ildə Böyük Britaniyanın investisiyaları Azərbaycana qoyulan xarici investisiyaların 51,7 %-ni təşkil etmişdir[43].

Fəslin **"Böyük Britaniyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində mövqeyi"** adlanan ikinci paraqrafında Böyük Britaniyanın münaqişədə tutduğu mövqe araşdırılmış və neft əməkdaşlığının bu məsələyə təsiri təhlil olunmuşdur. Qeyd olunmuşdur ki, Böyük Britaniya qarşıdurmanın regionda sabitlik və

---

[43] Ölkələr üzrə xarici ticarət dövriyyəsi: [Elektron resurs] / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi – 17 may, 2020.
URL: https://www.stat.gov.az/source/trade/

firavanlığa əngəl törətməsi barədə dəfələrlə bəyan etmiş və münaqişənin həllini ATƏT-in Minsk qrupu çərçivəsində gördüyü barədə bəyanatlar vermişdir. Britaniya hökuməti tərəfləri münaqişənin sülh yolu ilə həllinə çağırmışdır. Azərbaycanın neft sektoruna böyük kapital qoyuluşlarını nəzərə alındıqda sərmayələrin təhlükəsizliyini təmin etmək üçün bölgədə sabitliyin yaradılmasının və müharibənin qarşısının alınmasının Britaniya şirkətləri üçün əhəmiyyət daşıdığı aydın olur.

**Nəticədə** tədqiqatdan irəli gələn başlıca elmi-nəzəri müddəalar, ümumiləşdirmələr aparılmış və ikitərəfli münasibətlərin gələcək inkişafı üçün elmi əsaslandırılmış praktik tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Гейдар Алиев и «Контракт века» // "Heydər Əliyev irsi və Azərbaycan Respublikasının davamlı inkişafı" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları, - Bakı: - 2015, c. 70-78.
2. Нефтяные интересы Великобритании на Южном Кавказе (1991-2013 гг) // Qafqazşünasların Birinci Beynəlxalq Forumunun materialları, - Bakı: - 17-18 aprel, - 2017, - c. 224-229.
3. Первые шаги в деле сотрудничества // – Bakı: Geostrategiya jurnalı, - 2017. № 04(40), - s.55-57.
4. Политика Великобритании на Южном Кавказе (1917–1918 гг.) // Материалы Всероссийской Научной Конференции «Юг России в условиях революционных потрясений, вооруженных конфликтов и социально-политических кризисов, 1917–2017 гг.», - Ростов-на-Дону: - 5-6 октября, - 2017, - с. 41-47.
5. Birinci və ikinci müstəqillik illərində Böyük Britaniyanın Azərbaycan siyasəti: müqayisəli təhlil // "Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər" mövzusunda Respublika elmi konfransı (tezislər), - Bakı: - 4 dekabr, - 2017, - s. 75.
6. Проект Баку – Тбилиси – Джейхан и страны Большого Кавказа // Материалы V Международного форума

историков-кавказоведов «Большой Кавказ: пространство взаимодействия цивилизаций и народов», - Ростов-на-Дону: - 15-16 ноября, - 2017, - с. 319-326.
7. The role of the USA in the implementation of the Baku-Tbilisi-Ceyhan project // - Kiev: American history and politics, - 2017. № 04, - p. 125-131.
8. Исторические корни азербайджано-британских отношений // - Bakı: Tarix və onun problemləri, - 2018. № 02, - с. 261-265.
9. Английский капитал в российской нефтяной промышленности в конце XIX – начале XX века // Пятые Всероссийские (с международным участием) историко-этнографические чтения, посвященные памяти профессора Магомедова Расула Магомедовича, - Махачкала: - 12 апреля, - 2018, - с. 183-186.
10. Позиция Англии к большевистской политике пристрастия по отношению к азербайджанскому народу (на основе английских архивных материалов) // "Qafqazda deportasiyalar" mövzusunda Respublika elmi konfransı (tezislər), - Bakı: - 29 noyabr, - 2018, с. 121-122.
11. Деятельность компании БП в нефтяном секторе Азербайджана (90 гг. XX века) // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq elmi konfransın materialları, - Bakı: - 23-24 may, - 2018, - с. 241-247.
12. Нефтяные интересы Великобритании в Азербайджане: история и современность // - Самара: Научный аспект, - 2019. Т.8, № 02, - с. 1011-1024.
13. Влияние политических процессов на Кавказе конца XX в. на нефтяную политику Азербайджана // Материалы VI Международного форума историков-кавказоведов «Народы Кавказа в цивилизационном пространстве России», - Ростов-на-Дону: - 13-15 ноября, - 2019, - с. 291-295.
14. Нефтяной фактор в азербайджанской политике Великобритании: история и современность // - Москва:

Вопросы национальных и федеративных отношений, - 2019. Т.9, № 10(55), - с. 1767-1774.

15. Роль Гейдара Алиева в установлении взаимоотношений между Азербайджанской Республикой и Великобританией // "Beynəlxalq münasibətlərin aktual problemləri" adlı Respublika elmi konfransı məruzələrin tezisləri, - Bakı: - 25 oktyabr, - 2019, - с. 220-222.
16. Проявления армянского терроризма в Великобритании в 1970-1980-е гг. // "Qafqazda terror" mövzusunda Respublika elmi konfransı (tezislər), - Bakı: - 28 noyabr, - 2019, - с. 90-91.
17. Азербайджано-британские отношения: современное состояние и перспективы // - Naxçıvan: AMEA Naxçıvan bölməsinin Elmi əsərlər jurnalı, - 2020. № 1, - с. 78-83.
18. Политические и экономические аспекты нефтяных договоров, подписанных между Азербайджаном и Великобританией (1991-2013) // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Sosial Elmlər jurnalı, - 2019. № 2, - s. 125-131.
19. Современные проблемы отношений между Азербайджанской Республикой и Великобританией // Qafqazşünasların İkinci Beynəlxalq Forumunun materialları, - Bakı: - 23-24 may, - 2020, - с. 120-123.
20. Английский капитал в бакинской нефтяной промышленности в конце XIX – начале XX вв. // Материалы международной научно-практической конференции «Политические, социально-экономические и межэтнические процессы в пограничных регионах России в XVI – начале XX вв.», - Уфа: - 1-4 июня, - 2020, - с. 315-318.
21. Обсуждения проблем Кавказа: Второй Международный Форум Кавказоведов // - Bakı: Qafqazşünalıq jurnalı, - 2020. № 1, - с. 131-133.

Dissertasiyanın müdafiəsi 18 mart 2022-ci il tarixində saat 13⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143, Bakı şəh., H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.02.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 37 973 işarə

Tiraj: 30